Azerbaijan Energy Regulatory Agency

# Enerji Məsələlərini Tənzimləmə Agentliyi

## Enerji Məsələlərini Tənzimləmə Agentliyi tərəfindən göstərilən xidmətlər

Enerji Məsələlərini Tənzimləmə Agentliyinin Nizamnaməsinin 3.1.4-cü yarımbəndinə əsasən, Agentlik "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq aşağıdakı icazələri vermək vəzifəsini yerinə yetirir:

- Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi güc həddindən yuxarı elektrik qurğuları üçün istismara buraxılış aktı;
- sənaye qaz qurğusunun istismarına icazə.

## Elektrik qurğuları üçün istismara buraxılış aktı

Azərbaycan Respublikası Prezidentinin 16 iyul 2018-ci il tarixli 204 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində nəzarətin həyata keçirilməsi Qaydası"nın 2.3-cü bəndinə əsasən, Enerji Məsələlərini Tənzimləmə Agentliyi tərəfindən bu Qaydanın 2.1.5-ci yarımbəndinə uyğun olaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi güc həddindən yuxarı elektrik qurğularının istismarına buraxılış aktı vermək üçün texniki baxış sifarişçilərin təqdim etdiyi ərizə və aşağıdakı sənədlər əsasında keçirilir:

- Enerji təchizatı müəssisəsinin və ya dövlət elektroenergetika müəssisəsinin verdiyi texniki şərtlər;
- enerji təchizatı müəssisəsi ilə razılaşdırılmış enerji təchizatı layihəsi;
- tikinti-quraşdırma işlərini aparmış şəxslə sifarişçi arasında təhvil-təslim aktı;
- elektrik təsərrüfatına cavabdeh şəxsin təyin olunması barədə əmrin surəti;
- kontur torpaqlama müqavimətinin ölçülməsi protokolu;

- transformatorun və avadanlıqların sınaq-sazlama protokolu;
- elektrik veriliş xəttinin sınaq protokolu və qapalı işlər aktı;
- elektrik sayğacının quraşdırılması aktı;
- “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikası Qanununun 18.2.1 – 18.2.4-cü maddələrində göstərilən sənədlər.

“Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikası Qanununun 18.2.1 – 18.2.4-cü maddələrində əsasən ərizəyə aşağıdakı sənədlər əlavə edilir:

- Ərizəçi hüquqi şəxs, xarici hüquqi şəxsin filialı, nümayəndəliyi olduqda, hüquqi şəxslərin dövlət reyestrindən çıxarışın surəti;
- ərizəçi fərdi sahibkar olduqda, şəxsiyyət vəsiqəsinin surəti;
- ərizəçinin vergi ödəyicisi kimi uçota alınması haqqında şəhadətnamənin surəti;
- ərizədə qeyd olunan obyektlərdən hər biri üzərində ərizəçinin mülkiyyət, istifadə və ya icarə hüququnu təsdiq edən sənədin surəti (əgər lisenziya tələb olunan fəaliyyətin həyata keçirilməsi və icazə tələb olunan hərəkətin yerinə yetirilməsi obyektlə bağlıdırsa).

# Dövlət rüsumu

“Dövlət rüsumu haqqında” Azərbaycan Respublikası Qanununun 18.76-cı maddəsinə əsasən dövlət rüsumunun dərəcəsi belə müəyyən edilib: “Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən güc həddindən yuxarı elektrik qurğularının istismara buraxılış aktının verilməsi – 50 manat”.

# Sənaye qaz qurğusunun istismarına icazə

Azərbaycan Respublikası Prezidentinin 16 iyul 2018-ci il tarixli 204 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində nəzarətin həyata keçirilməsi Qaydası"nın 3.2.1-ci bəndinə əsasən qaz təchizatı sahəsində nəzarətin həyata keçirilməsi ilə bağlı Agentliyin səlahiyyətlərindən biri də "sənaye qaz qurğusunun istismarına icazə vermək" kimi müəyyən edilib.

Həmin Qaydanın 3.3-cü bəndinə əsasən, Agentlik tərəfindən bu Qaydanın 3.1.2-ci yarımbəndinə uyğun olaraq texniki baxış sifarişçilərin təqdim etdiyi ərizə və aşağıdakı sənədlər əsasında həyata keçirilir:

- Qaz paylayıcısının verdiyi texniki şərt;
- qaz paylayıcısı ilə razılaşdırılmış qaz təchizatı layihəsi;
- tikinti-quraşdırma işlərini aparmış şəxslə sifarişçi arasında təhvil-təslim aktı;
- buraxılış-sazlama və rejim-sazlama işlərinin yekununa dair akt;
- quraşdırılmış sənaye qaz qurğularının texniki pasportları;
- qaz sayğacının quraşdırılması aktı;

"Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun 18.2.1 – 18.2.4-cü maddələrində göstərilən sənədlər".

"Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun 18.2.1 – 18.2.4-cü maddələrində əsasən ərizəyə aşağıdakı sənədlər əlavə edilir:

- · Ərizəçi hüquqi şəxs, xarici hüquqi şəxsin filialı, nümayəndəliyi olduqda, hüquqi şəxslərin dövlət reyestrindən çıxarışın surəti;
- · ərizəçi fərdi sahibkar olduqda, şəxsiyyət vəsiqəsinin surəti;
- · ərizəçinin vergi ödəyicisi kimi uçota alınması haqqında şəhadətnamənin surəti;
- · ərizədə qeyd olunan obyektlərdən hər biri üzərində ərizəçinin mülkiyyət, istifadə və ya icarə hüququnu təsdiq edən sənədin surəti (əgər lisenziya tələb olunan fəaliyyətin həyata keçirilməsi və icazə tələb olunan hərəkətin yerinə yetirilməsi obyektlə bağlıdırsa)".

Sənaye qaz qurğusunun istismarına icazə üçün dövlət rüsumu müəyyən edilməyib.